AZƏRBAYCAN RESPUBLİKASININ

MALİYYƏ BAZARLARINA NƏZARƏT PALATASI

# QİYMƏTLİ KAĞIZLAR BAZARININ İCMAL GÖSTƏRİCİLƏRİ

*31 dekabr 2016-cı il tarixinə*

**Bakı - 2017**

# Qiymətli kağızlar bazarının ümumi icmalı

2016-cı il ərzində qiymətli kağızlar bazarı artım nümayiş etdirmiş, pozitiv kəmiyyət göstəriciləri ilə yanaşı önəmli keyfiyyət dəyişiklikləri qeydə alınmışdır. Belə ki, 2016-cı ilin yanvar-dekabr ayları ərzində qiymətli kağızlar bazarı 2015-ci il ilə müqayisədə 33% artaraq 14,026 milyard manat təşkil etmişdir. Hesabat ili ərzində qiymətli kağızların ilkin bazarı 4,5 dəfə artaraq 8,669 milyard manata çatmışdır. Ümumilikdə korporativ qiymətli kağızlar bazarı 2 dəfədən, dövlət qiymətli kağızlar bazarı isə 40 dəfədən çox artmışdır.

Ümumi göstəricilər

| | 2016 | | 2015 | | məbləğ üzrə fərq | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | yanvar - dekabr | | yanvar - dekabr | | | |
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Korporativ qiymətli kağızlar** | **3 235** | **8 746 935 151** | **4 855** | **4 186 121 930** | **2,1 dəfə** | **62%** |
| İlkin bazar | 628 | 8 248 026 100 | 215 | 1 913 926 446 | 4,3 dəfə | |
| Təkrar bazar | 2 607 | 498 909 051 | 4 640 | 2 272 195 484 | 4,5 dəfə | |
| **Dövlət qiymətli kağızları** | **282** | **836 158 060** | **16** | **20 793 459** | **40,2 dəfə** | **6%** |
| İlkin bazar | 207 | 421 490 193 | 0 | 0 | - | |
| Təkrar bazar | 54 | 145 912 500 | 16 | 20 793 459 | 7 dəfə | |
| **Törəmə maliyyə alətləri** | **45 833** | **4 440 667 091** | **48 814** | **6 194 376 766** | **28%** | **32%** |
| **Repo/əks-repo** | **2** | **2 064 764** | **113** | **123 762 620** | **60 dəfə** | |
| **Qiymətli kağızlar bazarı** | **49 352** | **14 025 825 065** | **53 798** | **10 525 054 775** | **33%** | **100%** |
| İlkin bazar | 835 | 8 669 516 293 | 215 | 1 913 926 446 | 4,5 dəfə | |
| Təkrar bazar | 48 494 | 5 085 488 642 | 53 583 | 8 611 128 329 | 41% | |









# Korporativ qiymətli kağızlar

Hesabat dövrü ərzində real sektor təmsilçilərinin və maliyyə institutlarının fond bazarı vasitəsilə öz kapitallarını artırmaq təşəbbüsləri korporativ qiymətli kağızlar bazarının səhm seqmentində əməliyyatların həcminin 39% artaraq 913 milyon manat təşkil etməsinə səbəb olmuşdur. Xüsusilə banklar tərəfindən kapital tələblərinin təmin edilməsi məqsədilə nizamnamə kapitallarının artırılması səhm bazarının artımını şərtləndirən mühüm amil olmuşdur. Ümumilikdə səhmlərin ilkin bazarında bağlanan əqdlərin məbləği əvvəlki hesabat dövrü ilə müqayisədə 2 dəfədən çox artaraq 563 milyon manata çatmışdır.

Korporativ qiymətli kağızlar

| | 2016 | | 2015 | | məbləğ üzrə fərq | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | yanvar - dekabr | | yanvar - dekabr | | | |
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Korporativ qiymətli kağızlar** | **3 235** | **8 746 935 151** | **4 855** | **4 186 121 930** | **2,1 dəfə** | **100%** |
| **Səhmlər** | **2 587** | **913 023 106** | **4 159** | **656 948 966** | **39%** | **10,4%** |
| Səhm (ilkin bazar) | 133 | 563 430 807 | 118 | 272 818 223 | **2 dəfə** | |
| Səhm (təkrar bazar) | 2 454 | 349 592 299 | 4 041 | 384 130 743 | **9,1%** | |
| **Korporativ istiqrazlar** | **648** | **7 833 912 045** | **696** | **3 529 172 964** | **2,2 dəfə** | **89,6%** |
| İlkin bazar (manatla) | 24 | 7 501 840 000 | 37 | 1 627 266 538 | **4,6 dəfə** | |
| İlkin bazar (xarici valyutada) | 471 | 182 755 293 | 60 | 13 841 685 | **13 dəfə** | |
| Təkrar bazar (manatla) | 40 | 73 680 788 | 582 | 1 869 501 613 | **25,4 dəfə** | |
| Təkrar bazar (xarici valyutada) | 113 | 75 635 964 | 17 | 18 563 128 | **4,1 dəfə** | |




Hesabat dövründə korporativ istiqrazlarla bağlanmış əqdlərin həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 2,2 dəfə artaraq 7,833 milyard manat olmuşdur. Dövlət əhəmiyyətli layihələrin qiymətli kağızlar bazarı vasitəsilə maliyyələşməsi korporativ istiqrazlar bazarının yüksək artım dinamikasını təmin etmiş, nəticədə manatla yerləşdirilmiş korporativ istiqrazların həcmi 4,6 dəfə artaraq 7,5 milyard manata çatmışdır.

Dövr ərzində xarici valyutada ticarət olunan korporativ istiqrazlar bazarının həm ilkin, həm də təkrar bazarında artım müşahidə edilmişdir. Belə ki, xarici valyutada yerləşdirilmiş korporativ istiqrazların həcmi 13 dəfə artaraq 182 milyon manata çatmış, təkrar bazarda keçirilmiş əməliyyatların həcmi isə 4,1 dəfə artaraq 75,6 milyon manatı ötmüşdür.

## Dövlət qiymətli kağızları

Hesabat dövrü ərzində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən daxildən borclanma siyasətinin həyata keçirilməsi, eləcə də Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən manata olan təzyiqin azaldılması məqsədilə not buraxılışlarına başlanması dövlət qiymətli kağızları bazarında əməliyyatların həcminin artım dinamikasını müəyyən etmişdir.

Dövlət qiymətli kağızları

| | 2016 yanvar - dekabr | | 2015 yanvar - dekabr | | məbləğ üzrə fərq | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Dövlət qiymətli kağızları** | **282** | **836 158 060** | **16** | **20 793 459** | **40,2 dəfə** | **100%** |
| **Dövlət istiqrazları** | **261** | **567 402 693** | **16** | **20 793 459** | **27,2 dəfə** | **68%** |
| İlkin bazar | 207 | 421 490 193 | 0 | 0 | - | |
| Təkrar bazar | 54 | 145 912 500 | 16 | 20 793 459 | **7 dəfə** | |
| **Mərkəzi Bankın notları** | **21** | **268 755 367** | **0** | **0** | **-** | **32%** |
| İlkin bazar | 21 | 268 755 367 | 0 | 0 | - | |
| Təkrar bazar | 0 | 0 | 0 | 0 | 0 | 0 |




Hesabat dövründə dövlət istiqrazları bazarında əqdlərin həcmi ötən illə müqayisədə 27,2 dəfə artaraq 567 milyon manat təşkil etmişdir. Dövlət istiqrazlarının təkrar bazarı 7 dəfə artaraq 146 milyon manata çatmışdır. Ölkədə gedən iqtisadi proseslər fonunda ilk dəfə olaraq dövlət istiqrazları üzrə gəlirliliyin bazarda tələb və təklif əsasında formalaşması məqsədilə təqdim edilən sifarişlər üzrə qiymət həddi təyin

edilməmişdir. Nəticədə dövlət qiymətli kağızları üzrə orta gəlirlilik göstəricilərində əvvəlki illərdən fərqli olaraq artım müşahidə olunmuşdur. 2016-cı ildə manatla yerləşdirilən qısamüddətli dövlət istiqrazları üzrə orta çəkili gəlirlilik 13,07%-ə yüksəlmişdir. Xarici valyuta ilə ortamüddətli dövlət istiqrazlarının yerləşdirilməsi yalnız bir dəfə baş tutmuşdur ki, onun da gəlirliyi 3% təşkil etmişdir.

2016-cı il ərzində monetar siyasətin həyata keçirilməsi məqsədilə iki illik fasilədən sonra fond birjasında Mərkəzi Bankın notları yerləşdirilmişdir. Hərrac üsulu ilə yerləşdirilmiş notların ümumi məbləği 268,7 milyon manat olmuşdur. Hesabat dövrü ərzində Mərkəzi Bankın notları üzrə orta çəkili gəlirlilik 14,86% təşkil etmişdir.

## Törəmə maliyyə alətləri bazarı

Hesabat dövrü ərzində Bakı Fond Birjasının törəmə maliyyə alətləri platformasında ümumi məbləği 4,168 milyard manat olan valyuta əsaslı və ümumi dəyəri 272 milyon manat olan əmtəə əsaslı törəmə maliyyə alətləri ilə ticarət əməliyyatları həyata keçirilmişdir. Ümumilikdə törəmə maliyyə alətləri bazarının ümumi həcmi 4,440 milyard manat olmuş və bazarda keçən ilin müvafiq dövrü ilə müqayisədə 28% geriləmə müşahidə edilmişdir.

Törəmə maliyyə alətləri bazarı

| | 2016 | | 2015 | | məbləğ üzrə fərq (%) | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | yanvar - dekabr | | yanvar - dekabr | | | |
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Törəmə maliyyə alətləri** | **45 833** | **4 440 667 091** | **48 814** | **6 194 376 766** | **28%** | **100%** |
| Əmtəə əsaslı fərq müq. | 5 661 | 272 094 473 | 5 369 | 98 890 205 | **2,8 dəfə** | **6%** |
| Valyuta əsaslı fərq müq. | 40 172 | 4 168 572 618 | 43 445 | 6 095 486 561 | **32%** | **94%** |



# Repo və əks-repo əməliyyatları

Hesabat dövrü ərzində dövlət istiqrazları ilə ümumi məbləği 2 milyon manat olan iki repo əməliyyatı keçirilmişdir ki, bu da 2015-ci illə müqayisədə 15,6 dəfə azdır.

| Repo və əks-repo əməliyyatları | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2016 | | 2015 | | məbləğ üzrə fərq (%) | bazar payı (%) |
| | yanvar - noyabr | | yanvar - noyabr | | | |
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Repo/əks-repo** | **2** | **2 064 764** | **111** | **119 759 375** | **58 dəfə** | **100%** |
| Korporativ istiqrazlar ilə repo | 0 | 0 | 81 | 87 541 774 | - | 0% |
| Dövlət istiqrazları ilə repo | 2 | 2 064 764 | 30 | 32 217 601 | 15,6 dəfə | 100% |
| Mərkəzi Bankın notları ilə repo | 0 | 0 | 0 | 0 | - | 0% |